# Qorxmaz Abdulla dünyası

**Həyat bizə yaşamaq üçün verilən ən gözəl fürsətdir. Bu fürsəti Azərbaycanın ədəbi mühitində yetərincə tanınan yazıçı-publisist, fəal ictimaiyyətçi, filoloq, saz-söz xiridarı, muğam bilicisi, müğənni Qorxmaz Abdulla da fövtə verməmiş, boşuna buraxmamışdır. Onun keçdiyi həyat yoluna qısaca nəzər salmaq bu dediklərimizin əyani sübutu olardı. Q.Abdulla APİ-nin filologiya fakültəsini 1969-cu ildə bitirib. Bədii yaradıcılığa tələbəlik illərindən başlayıb. Müxtəlif vaxtlarda kütləvi informasiya vasitələrində müxbir, məsul katib, redaktor müavini işləyib. 50 ildən çoxdur respublikanın qəzet və jurnallarında respublika regionunda maraqlı məqalələrlə müxtəlif peşə sahiblərinin fəaliyyətinə dair yazılarla, bədii, bədii-publisistik, elmi, pedaqoji, metodiki, ədəbi-tənqidi əsərlərlə çıxış edir. İndiyədək 14 kitabı işıq üzü görüb. ”Azərbaycan muğamları şagirdlərin vətənpərvərlik məktəbidir”, ”Səni harada axtarım”, ”Şakir vətən daşıdır”, ”Gecə yaman uzunmuş”, ”Sönməyən məşəl”, ”Urdan bir atlı keçdi”, ”Mən səndən ayrılmazdım”, ”Nəğmələrə dönən daş haraylar”, ”Ömürdən o yana uzanan yollar” kitabları oxucularda böyük maraq doğurub. 8 almanaxda hekayələri çap olunub. 30-dək elmi-bədii, bədii-publisistik, elmi-kütləvi kitabın redaktoru olmuş, yarısından çoxuna dəyərli obyektiv ön söz yazmışdır.**

Q.Abdullanın daha 2 kitabı- ”Bəlalı dünyam” romanı və ”Qisas qiyamətə qalmasın” povesti çap ərəfəsindədir. SSRİ Jurnalistlər İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. ”Qızıl qələm”, ”H.Zərdabi”, ”Şərəf” ali media mükafatları laureatıdır.

Qarabağ müharibəsi veteranıdır. Vaxtilə 35 il fasiləsiz olaraq dövlət qulluğunda çalışmışdır. Prezident təqaüdçüdür.

Doğrudan da, belə bir samballı, zəngin, çox da hamar olmayan həyat yolu keçmək açığını desək, hər kəsə müyəssər olmur. Öz bacarığını, qabiliyyətini, biliyini, dünyagörüşündə olanları görüb-götürdüklərini, içindən keçirdiklərini qələmə almaq, həm də gələcək nəsillərə ötürməyin özü elə bir şərəf məsələsidir ki, bunu da Q.Abdulla öz bədii yaradıcılığı, irsi ilə layiqincə sübut etmişdir. Bu həm də yarım əsrdən çox zaman hüdudlarında ədəbi-bədii hadisələrin fövqündə durmaq, söz səltənətini silkələmək. Q.Abdullanın alın yazısı, tale qismətidir.

İndi vərəqlədiyim ”Gecə yaman uzunmuş” hekayələr toplusu Q.Abdullanın sayca altıncı kitabıdır. Vidadi Dağtumaslının redaktorluğu ilə işıq üzü görmüş bu kitabda müəllifin son illərdə qələmə aldığı hekayələri toplanmışdır. Mövzu müxtəlifliyinə baxmayaraq, bu əsərlərin əksəriyyəti qaçqın və məcburi köçkünlərin ağır, işgəncəli həyat tərzi, arzuları, doğma od-ocağa qayıtmaq istək və ümidi üstünlük təşkil edir. Obrazlı dil, sadəlik, səmimilik, inandırıcılıq və təbiilik həmin hekayələri şərtləndirən xüsusiyyətlərdir.

Elə başlanğıcda ”Mən zəmanə adamı deyiləm” hekayəsində iki əmioğlunun - Amalxanla Elcanın dialoqunda oxucu kimin-kim olduğunu anlayır və haqlının tərəfindədir, Elcana rəğbət bəsləyir. Çünki Elcan haqqını istəyir, antipodməmurları atır qələmin ucuna, Amalxan isə ziddiyyətli obrazdır, nə ətdir, nə balıq. Nə istədiyini bilsə də, təbiətcə qorxaq, riyakar olduğundan, nalamıxa vurur, haqqı deyən əmioğlusunu qınayır, hətta onu işə salacağından ehtiyatlanır. Q.Abdullanın ”Gecə yaman uzunmuş” yazısında təbiətin canlı təsvirinə diqqət yetirək: ”Qışın qudurub-quduzlaşan çağıydı. Qaş qaralmaqda idi. Bayırda çalın-çarpaz qar tökürdü. Acı külək qarı döşləyib ora-bura qovurdu. Küçələrdən əl-ayaq seyrəlirdi. Hərdən bir avtomaşınların boğuq siqnal səsləri eşidilirdi. Azğınlaşmış küləyin əlindən buraxılıb isti otaqlara doluşmaq, qızınmaq təpələriylə pəncərə şüşələrinə çırpılan qar dənəcikləri dərhal donur, ağ gül formasında şüşələrin üzərində bitirdi.” Cümlələr rəssam dəqiqliyi ilə işlənir, oxucunu təsirləndirir. Hekayənin kulminasiyası isə gənc tələbə Mütəllimin erməni Rantiklə dialoqu yox, məhz onu üzən sualların cavabının tapılmamasıdır: ”Görən nə səbəbə qədim türk məskəni Bakımızın göbəyində, ən yaxşı, səfalı, havası, suyu bol olan yerlərində yurdu-məskəni, zatı-kökü bilinməyən yastıbaşlar məskən salıb?” Çox sonralar bu sirli, müəmmalı sualların cavabını tapdım deyir,- müəllif.

”Xan Çinar- xar Çinar” əfsanə publisistik yazısında müəllifin xan Çinarla dialoqu da yadda qalan məqamlardandır. Cəbrayıl elinin rəmzi, vüqarı, əzəməti, yaşıl tacı idi bir vaxtlar Xan Çinar. İndi isə o qolubudağı qırılmış, məzlum, məğlub durumdadır, müəllifi və insanları ittiham edir, onu tənha qoyub getdiklərinə gileylənir, onların yolunu gözləyir, tənhalığından şikayətlənir Xan Çinar.

”Kimdir günahkar?” hekayəsində professor Şöhrət Səttarlının qızı Aytaca dərs deyən Həqiqət müəllimə savadsız, qaba, özündən razı olmağı azmış kimi, hələ bir ona bir vaxtlar dərs deyən, hörmət-izzət sahibi olan müəllimi ittiham etməkdən belə çəkinmir. İndi professor özü aciz durumdadır. Kimdir günahkar? Sualın cavabında çətinlik çəkir. O yaşadığı dövrü, ətraf mühiti qınasa da, özünü də belələrinə qiymət yazmağında qismən günahkar sayır, mənəvi cinayət törətdiyini etiraf edir.

Filologiya üzrə fəlsəfə doktoru, folklorşünas alim Tariyel Abbaslının redaktorluğu ilə ”Ömürdən o üzə uzanan yollar” (Bakı, ”Nərgiz” nəşriyyatı, 2016) kitabında Q.Abdullanın son illərdə qələmə aldığı hekayələr, əfsanələr, yumoreskolar, rəvayətlər və təmsilləri, eləcə də əksəriyyəti müxtəlif vaxtlarda mətbuat səhifələrində çap olunmuş incəsənət və incəsənət adamları haqqında çoxsaylı məqalə, xatirə və mü-



sahibələrindən bir qismi toplanmışdır.

Real həyat hadisələrinin yerli-yataqlı təsvirləri ilə yanaşı, Q.Abdulla qələmini əfsanə, rəvayət, təmsil janrlarında da sınayır və uğurlu yazılara imza atır. ”Bənəfşə nişan oldu” əfsanə- yazısında müəllif Bənəfşə ilə baharın kədərli eşq hekayətinin sonunda kolların dibində tək bitən boynu bükük bənövşənin dili ilə öz nisgilini, qəribliyini, didərginliyini, vətənsizliyi izhar edir, oxucunu duyğulandırır.

”İnsan və qaraquş” əfsanəsində müəllif qaraquşdan, yəni qartaldan doğulan şahinin güclü, dəmirbiləkli olmasının insanlara ziyandan başqa heç bir xeyri olmadığını, yaşadığı qəbilənin qayda-qanunları ilə hesablaşmadığını qeyd edir. Ən ağır cəza olaraq insanlar onu öz tayfalarından qovub uzaqlaşdırırlar, öz qəbilələrindən təcrid edirlər. Şahin sonda insan kimi ölməyi də bacarmır, öz yırtıcı xisləti ilə qeyb olub, qara buluda çevrilir. Bu əfsanənin süjet xətti M.Qorkinin ”İzergil qarının hekayətləri” əsərində ”Larra” əfsanəsini xatırladır.

Q.Abdulla məşhur ədibin ”İnsanlar yaşadıqları cəmiyyətin qanunları ilə hesablaşmalıdırlar” ideyasını bir növ davam etdirir.

Müəllif ”Dursunabad” rəvayətində dahi şeyx Nizami fövqündə ədalətli şah axtarışındadır. Qəddarlığı ilə seçilən şah Dursunu el ağsaqqalı Qarsalanın, ağbirçək Pərinisənin tənəsi, təhər-töhməti ilə yola gətirib, ədalətli olmağa, elinobanın qeydinə qalmasına nail olurlar.

Q.Abdullanın avtobioqrafik janrda qələmə aldığı ”Ötən günlərin yadda qalan məqamları” (”Yazıçı”, 2016) kiçik həcmli kitabı haqqında ”Xudafərin” qəzetinin 10 may 2017-ci il nömrəsində qəzetin baş redaktoru filologiya üzrə fəlsəfə doktoru Şakir Əlifoğlu ”Keçmiş zaman - həyat güzgüsdür” adlı məqaləsində bu kitab haqqında bir ədəbiyyat nəzəriyyəçisi kimi öz fikirlərini oxucularla bölüşmüşdür. Müəllifin qənaətincə ”Q.Abdullanın xatirələrini dilə gətirdiyi bu məqalələr toplusu keçmişin acı səhvlərini görüb nəticə çıxarmağa sövq edir ki, bir daha bu gün də, gələcəkdə də cəmiyyətimizdə neqativ halların qarşısının alınmasında həmrəylik göstərərək, haqq-ədalətin, humanist prinsiplərin qorunub yaşadılmasında hamımız səfərbər olaq. Bir sözlə, kitabın məzmunu bizə o ideyanı təlqin edir ki, keçmişin səhvlərindən ibrətamiz nəticə çıxaraq, çünki keçmiş özü də hardasa insanın dönüb özünə baxması üçün bir həyat güzgüsüdür”.

Bu yaxınlarda ”Ədalət” qəzetinin 15-22 aprel 2017-ci il nömrələrində gedən ”Kiçik adam obrazları böyük ədəbi uğurların açarı kimi” sərlövhəli yazı (müəllifi Hüseyn Əsgərov, Naxçıvan şəhəri) Q.Abdulla yaradıcılığı üçün onun yaratdığı tipik surətlərin təhlilinə bir ipucu verir. Müəllif dünya ədəbiyyatının, rus klassik ədəbiyyatının, Azərbaycanın görkəmli ədiblərinin yaratdıqları obrazların geniş uğurlu təhlilini veribdir. Kimdir bu ”kiçik” adam personajları,- müəllif yazır, - onlar sənsən, mənəm, odur. Bizim hər birimiz söz sənətinin predmetiyik. Biz çoxuq, cəmiyyətin əksəriyyətiyik. Müəllifin fikrincə, bu personajlar yorulmuş, bezmiş insanlardır və əslində yaşadıqları cəmiyyətin həyat tərzinin ifadəsidirlər. Təsadüfi deyildi ki, Belinski Dostoyevskinin 1846-cı ildə nəşr olunan ”Zavallı insanlar” romanını - kiçik adamlar haqqında böyük ədəbi abidə adlandırırdı. Qoqulun ”Şinel”i A.P.Çexovun ”Dilənçi”, ”6 nömrəli palata”, ”Məmurun ölümü” kimi məşhur hekayələri də onun kimi.

V.İ.Lelin yazırdı: ”Çexovun ”6 nömrəli palata”sını oxuyanda özünü sanki dəlilər salınan həmin 6 nömrəli palatada hiss edirsən”.

L.N.Tolstoyun dünyaca məşhur ”Hərb və sülh” əsərində varlı təbəqənin nümayəndəsi knyaz Pier Bezuxovu Moskvanın küçələrindən atılar həbsxananın bir küncünə. O hətta Napoleonu məhv etməyə cəhd edir. Həbsxana otağında künə, müti bir rus kəndlisi Platon Karatayev də var. Knyaz acından öldüyü halda Platon çör-çöpdən ocaq qalayır, yol çantasında qalan bir-iki kartofu ocaqda bişirir və birini də knyaza verir. İdeya dahi Tolstoya məxsusdur, ” həyatda yaşamaq fəlsəfəsini gəlin bəyənmədiyiniz sadə kəndlidən, aşağı qatda olan, piyada insanlardan öyrənin.”

Azərbaycanın ədəbi mühitində də sadə peşə adamlarının, kiçik adam surətlərinin təsviri yetərincədir. C.Məmmədquluzadənin ”Poçt qutusu”, Ə.Haqverdiyevin ”Mirzə Səfər” hekayələrindəki canlı, duzlu məzəli kiçik adam obrazları Mirzə Səfər, Novruzəli, Usta Zeynal kimi tipik surətlər əbədi sənət əsərlərinin məhsuludur.

Müasirimiz, yazıçı-publisist Q.Abdulla da öz növbəsində bu ənənəni uğurla davam etdirmiş, sadə insanların canlı yadda qalan tipik obrazlarını ustalıqla yaratmışdır.

”Ömürdən o üzə uzanan yollar” hekayələr toplusunda ”Xəstə çox şey dilər” hekayəsini həyəcansız oxumamaq olmur. Doğma el-obalarından didərgin düşmüş, ”qaçqınam-köçgünəm halımı sorma” ovqatında olan yaşlarının bu ahıl vaxtında özlərinə sığınacaq yeri axtaran Doluxan kişi ilə zövcəsi Gülxanımın həyat hekayəti son dərəcə qəm-ələm doğurur.

”Məktub yetişmədi” yazısında müəllif məcburi köçkün Əlamdar Mirəlioğlunun avtoqəzada öləndən sonra cibindən tapılan məktubda - məmləkətin bütün neqativ reallıqları öz əksini tapır. Fəqət kimdir bunları eşidən, məktub yetişsə belə.

”Nadir nüsxə”də demaqoq Dayandur, ”Şeytan barmağı” hekayəsində Səhriyalı, ”Qara bayraq”da Meydan müəllim obrazlarını Qorxmaz müəllim bir nasir ustalığı ilə təsvir etmişdir.

”Təbib olsam yaralarım bağlaram” hekayəsində müəllif bütün yazdıqlarının fövqündə duraraq monoloq priyomu ilə yurd yerlərini, yurd yanğısı ilə ağrı-acısını, nisgilini oxuculara çatdırır. Tələbə yoldaşı Hətəm isə daha da irəli gedərək xalqı, milləti səfərbər olmağa çağırır, qisas qiyamətə qalmamalıdır deyir.

Q.Abdulla isə son qənaətini bu kəlamlarla tamamlayır, xalqı səfərbər olmağa səsləyir: ”Gəlin elliklə silahlanaraq gedək düşmən üstünə! Yurd yerlərimizin qan sızan yaralarına məlhəm qoyaq, sağaldaq! Fürsəti fövtə verməyək, sarala-sarala yaşamaqdansa, qızara-qızara ölmək yaxşıdır”.

**Yaşının bu ixtiyar çağında bu təpərlə, bu çoşquyla, bu çağırışla yaşayıb-yaradan qələm sahibinə cansağlığı arzusuyla heç vaxt qələmin ovxardan düşməsin deyirik.**

**Nazir Çərkəzoğlu,**
**AJB-nin üzvü**